Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Gender bərabərliyi ailə dəyərlərimizi arxa plana keçirməməlidir...

**Bəziləri elə başa düşür ki, gender deyəndə yalnız qadın hüquqları qorunmalı və təbliğ edilməlidir. Ona görə də bu yöndə səhv təbliğat aparırlar. Bu da gətirib ifrat feminizmə çıxarır və nəticədə ailə institutlarımızda problemlər yaranır. Gender təbliğatı elə aparılmalıdır ki, yalnız qadınların deyil, həm də ailə dəyərlərimizlə bağlı hüquqlar tapdalanmasın.**

Axır vaxtlar bir sıra sosial terminlər məişətimizə daxil olub. Tez-tez gender problemindən danışılır, demoqrafiya məsələləri gündəmə gətirilir. Təbii ki, bunlar yaxşı haldır. Məqsəd qadınların cəmiyyətdəki yerini möhkəmlətmək, xanımların ailə daxilində, cəmiyyətdə, iş prosesində pozulan hüquqlarını qorumaq, onların kişilərlə bərabər hüquqlu olmasının əyani şəkildə görsənməsi və s. məsələlərin həyata keçirilməsidir.

Yerli televiziyalarda ailə problemləri, o cümlədən də gender, demoqrafiya kimi məsələlər vaxtaşırı çözülür. Ailələrdə, cəmiyyətdə baş verənlər müzakirəyə çıxarılır. Demək olar ki, sosial proqramların əksəriyyətinin mövzusu ailədir. İndiki dövrdə cəmiyyətdə qadınların zorakılığa məruz qalması o demək deyil ki, yalnız kişilər günahkardır.

Qarşılıqlı hörmət əsasında ailədə həll edilməyəcək heç bir problem yoxdur. Hər iki tərəf danışıq aparmaq bacarığına, qarşı tərəflə ünsiyyət qabiliyyətinə malik olmalı, biri-birini dinləməyi bacarmalıdır. Belə olduğu halda "sağlam" ailənin mövcudluğundan danışmaq mümkündür.

### Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğvi nəzərdə tutulur

Azərbaycan gender bərabərliyinin təmini üçün bəzi beynəlxalq konvensiyalara qoşulub. Belə ki, Azərbaycan 1995-ci ildə BMT-nin "Qadınlara qarşı ayrıseçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında" Konvensiyaya qoşulub. 1979-cu ildə qəbul edilən, iki il sonra qüvvəyə minən Konvensiyanın digərlərindən fərqi burda sadəcə cinsi əlamətə görə qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğvinin nəzərdə tutulmasıdır. Başqa sözlə, gender neytrallığı tələbinin əvəzinə, konvensiya qadınların bərabərsizliyinin saxlanmasına xidmət edən hər hansı fəaliyyəti qadağan edir. 2001-ci ildə isə Azərbaycan ona aid Fakültativ Protokolu ratifikasiya edib. 1998-ci ildə mərhum Prezident Heydər Əliyev Qadın Problemləri üzrə Dövlət Komitəsinin (indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi) yaradılması barədə "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncamlar verib. 2000-ci ildə ölkə başçısı "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzalayıb. Fərman bütün dövlət strukturlarında qadınların təmsil olunma faizinin kişilərlə eyni səviyyədə olmasını nəzərdə tutur. Sonra isə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında



Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Nazirlik və idarələrdə gender siyasətinə məsul koordinatorlar-fokal mərkəzlər fəaliyyət göstərir. 2006-cı ildə ölkədə "Gender bərabərliyinin təminatları haqqında" Qanun qəbul edilib.

### Mövcud gender bərabərliyi modeli Avropanın təqdim etdiyi modeldən fərqli olsa da...

Psixoloq Ülviyyə Murtuzova "Bakı-Xəbər"ə bildirdi ki, biz gender bərabərliyinə qadın hüquqlarının müdafiəsi kimi yanaşsaq, Azərbaycan cəmiyyətində qadın hüquqları xüsusilə XX əsrdən etibarən yeni müstəviyə qədəm qoyduğunu söyləyə bilərik: "Təsadüfi deyil ki, Avropa cəmiyyətlərindən əvvəl məhz Azərbaycanda qadınlara seçki hüququ verilib. Yəni, bunu qəfil qəbul edilən qərar kimi səciyyələndirmək olmaz. Bu, Azərbaycan cəmiyyətində qadına göstərilən qayğı və diqqətin məntiqi yekunu idi. Ona görə də ölkədə yalnız istisna hallarda hansısa ailələrdə qadınla kişinin uyğunsuzluğu bütün Azərbaycan cəmiyyətində həmin mentallığın mövcud olmasına dəlalət etmir. Hesab edirəm ki, ölkəmizdə gender bərabərliyi tarixən özünəməxsus formada inkişaf edib, lokal xarakter daşıyır və ya regional modelə malikdir. Mövcud gender bərabərliyi modeli Avropanın təqdim etdiyi modeldən fərqli olsa da, Azərbaycan əxlaqının, milli mənliyinin və ailə institutunun üzərində qurulub. Əgər biz bu modeli zorakı şəkildə Avropa modeli müstəvisinə keçirmək istəsək, Azərbaycan ailələri və ailə institutunun təməli yerlə-yeksan olar. Bu, kifayət qədər həssas məsələdir.

Müasir Azərbaycanda elə fəaliyyət sferası yoxdur ki, orada qadınlar təmsil olunmasın. Azərbaycan qadını bu gün idarəçilik, qanunvericilik, hüquq-mühafizə, ədliyyə orqanlarında təmsil olunur, məsul vəzifə daşıyır. Hazırda ölkəmizdə qadınlar dövlət və özünüidarətmə orqanlarında, özəl sektorda yüksək postlarda təmsil olunurlar. Parlamentin vitse-spikeri və komitə sədrlərindən biri, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbəri qadındır. Bununla yanaşı, dövlətin güc strukturlarında çalışan, yüksək rütbəli rəhbər vəzifə sahibi olan ümumilikdə yüzlərlə qadın var. Müxtəlif qurumlarda təmsil olunan, rəhbər vəzifələrdə çalışan qadın mütəxəssislərin Azərbaycanda gender balansının tarazlığı ilə bağlı fikirləri, demək olar ki, birmənalı şəkildə müsbətdir. Hazırda Azərbaycanda qadınlar dövlət və özünüidarətmə orqanlarında, eləcə də özəl sektorda yüksək vəzifələrə sahibdirlər".

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**